# Gənclərin məşğulluğunu artıraq

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə «Şəms» Gənc Ailələrə Dəstək İctimai Birliyi tərəfindən "Gənclərin



məşğulluğunun artırılması" mövzusunda təlim keçirildi.

Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov iştirakçıları salamladıqdan sonra təlim haqqında məlumat verdi. "Şəms" Gənc Ailələrə Dəstək İctimai Birliyinin sədri Şəmsiyyə Əzimova çıxış edərək rəhbərlik etdiyi birliyin fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verdi və təlimin əhəmiyyətini diqqətə çatdırdı.

Daha sonra təlimçi Əlikram Rəsulov İşsizlik nədir, İşsizliyin yaranma səbəbləri, CV yazma qaydaları, İşə müraciət qaydaları, kollektivə uyğunlaşmanın əhəmiyyəti və s. haqqında geniş məlumat verdi.

Sonda təlim iştirakçılarını maraqlandıran mövzular ətrafında müzakirələr aparıldı.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

## Sənayenin qeyri-neft sektorunda 6,6 faiz artım var

Bu ilin yanvar-noyabr aylarında ölkə sənayesinin təsərrüfat subyektləri tərəfindən 29,8 milyard manatlıq məhsul istehsal edilmişdir.

Sənaye məhsulunun 70,4 faizi istehsal olunmuş mədənçıxarma bölməsində--38,4 milyon ton neft, 17 milyard kubmetr əmtəəlik təbii qaz və digər məhsullar hasil edilmişdir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə sənayenin qeyri-neft sahələrində istehsalın həcmi bu il əvvəlki ilin yanvar-noyabr aylarının səviyyəsinə görə 6,6 faiz yüksəlmiş, neft-qaz sektorunda isə 3 faiz azalma olmuşdur.

# Cüdo üzrə Qəbələ turniri

Qəbələ rayon Gənclər və İdman idarəsi "Qəbələ" İdman Klubu ilə birlikdə uşaq və yeniyetmələr arasında cüdo idman növü üzrə Qəbələ açıq turniri keçirmişdir. Turnir Qəbələ Olimpiya İdman Kompleksində baş tutmuşdur. Turnirdə respublikanın 15 şəhər və rayonundan 21 komanda üzrə 260-dək idmançı iştirak etmişdir.

Yarışın keçirilməsinin əsas məqsədi cüdo idman növünün respublikada inkişafına nail olmaq, həmçinin rayonda idmanın kütləviliyinin artırılması, uşaq və yeniyetmə idmançılarda yarış təcrübəsini və ustalığı inkişaf etdirmək, cüdo üzrə rayon yığma komandasının tərkibini müəyyən etməkdən ibarətdir.

Turnirin açılış mərasimində Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və "Qəbələ" İdman Kubunun kordinatoru Səbuhi Qarayev çıxış edərək respublikada olduğu kimi Qəbələ rayonunda da idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən idmançılara göstərilən qayğı və diqqətdən danışaraq yarış iştirakçılarına uğurlar arzulamışlar. Daha sonra komandaların məşqçilərinə yarışın keçirilmə qaydaları haqqında məlumat verilmişdir.

Açılış mərasimindən sona meydan birincilik uğrunda mübarizəyə başlayan 2002—2003 və 2004—2005-ci il təvəllüdlü cüdoçuların ixtiyarına verildi. Yarışda 2002—2003-cü il təvəllüdlü oğlanlar 24 kq, 27 kq, 30 kq, 34 kq, 38 kq, 42 kq, 46 kq, 50 kq, +50 kq çəki dərəcəsində və 2004—2005-ci il təvəllüdlülər isə 18 kq, 21 kq, 24 kq, 27 kq, 30 kq, 34 kq, 38 kq, 42 kq, +42 kq çəki dərəcəsi üzrə mübarizə aparmışlar. Yarış mövcud beynəlxalq qaydalara əsasən keçirilmişdir.

Turnirin yekununda medal sayına görə komanda hesabında Qəbələ rayonu I yerə, Sumqayıt şəhəri II yerə və Zaqatala rayon komandası III yerə layiq görülmüşlər. Hər çəki üzrə qalib gəlmiş (I, II, III yerləri tutmuş) idmançılara diplom və medallar, komandalara isə kuboklar təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Naxçıvanın 90 illiyinə həsr olunmuş tədbir

Qəbələ şəhər 3 saylı tam orta məktəbində Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illik yubileyi xüsusi təntənə ilə qeyd olunmuşdur.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Ədilə Əliyeva bildirdi ki, Azərbaycanımızın ən qədim yaşayış məntəqələrindən olan Naxçıvan Muxtar Respublikası yarandığı 90 il ərzində şanlı yol keçmişdir. 1990-cı ilin əvvəllərində vətənimizin başı üzərini qara buludlar alarkən tanrı Naxçıvana ulu öndər Heydər Əliyev kimi xilaskar göndərmişdir. Heydər Əliyev blokadada olan Naxçıvanı aclıqdan, soyuqdan, səfalətdən, ən başlıcası isə erməni işğalına düşməkdən xilas etdi.

Ulu öndərin müəyyən etdiyi yolda inamla irəliləyən Naxçıvan Muxtar Respubdikası bu gün mənfur düşmənlərimizə göz dağı verəcək səviyyədə, yüksək inkişaf mərhələsindədir. Daha sonra məktəbin tarix müəllimi Vəfa Mehralıyeva, dil-ədəbiyyat müəllimləri Xəyalə Balaqədirova və Ramin Nəbiyev mövzu ilə bağlı çıxış etdilər. Onlar Naxçıvan Muxtar Respublikasının şanlı keçmişi, ədəbi irsi, müasir sosial-iqtisvadi vəziyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat verdilər. Tədbirdə Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi görkəmli ədiblərin əsərlərindən səhnələşdirilmiş hissələr nümayiş etdirildi. Xüsusilə, «İblis» əsərindən göstərilən səhnə böyük maraqla qarşılandı.

Tədbirin sonunda Qəbələ RTŞ-nin metodisti Tərbiyə İsayeva çıxış etdi. Daha sonra Naxçıvan Muxtar Respublikasına həsr olunmuş video-çarx nümayiş etdirildi.

**Ramin NƏBİYEV,**
**Qəbələ şəhər 3 №-li məktəbin dil-ədəbiyyat müəllimi.**

# Yeni il şənliklərinin tarixi haqqında

Yeni il mərasimlərinin ilk dəfə harada keçirilməsi ilə əlaqədar müxtəlif fərziyələr vardır. Bəzi fərziyələrə görə yeni ili ilk dəfə qədim çinlilər bayram kimi qeyd etmişlər. Digər mənbələrdə almanların və ya romalıların, başqa mənbələrdə isə qədim Mesopotamiya ərazisində yaşayan xalqların yeni ili ilk dəfə təntənə ilə qarşılamaları bildirilir.

Tarixi mənbələr ən çox yeni ilin qədim mesopotamiyalılar tərəfindən bayram kimi qarşılanmağa başlandığını göstərir ki, bunun da tarixi 25 əsrdən çoxdur. Buna görə də yeni ilin qarşılanmasının hər hansı bir dinə və ya müqəddəslərdən kiminsə doğum gününə və ya hökmdarlıq taxtına çıxmasına aid etmək yanlışdır. Belə ki, bəzi xristian ölkələrində yeni ili milad (İsa Peyğəmbərin doğum günü) gününə, bəzi müsəlman ölkələrində Novruzun (Yeni gün) gəlişini həzrət Əlinin (islamın dördüncü xəlifəsi) xəlifəliyə başlaması gününə aid etmək doğru deyildir. Çünki əfsanəyə görə İsa peyğəmbər 2014 bundan öncə anadan olub, həzrət Əli VII əsrdə xəlifəliyə gəlib ki, istər yeni ilin, istərsə də Novruzun bayram kimi keçirilməsi bu tarixlərdən yüz illərlə əvvəldən başlanmışdır.

Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya, kimi dövlətlər hələ də bizi təəcübləndirən qabaqcıl mədəniyyətə malik idilər. Tarixçi alimlər də yeni il şənliklərinin ilk dəfə məhz bu diyarlarda təxminən mart ayının axırlarında keçirilməyə başlandığını iddia edirlər. Martın axırlarında Dəclə-Fərat çaylarında suyun yüksəlməsi ilə əkin-biçin işləri başlardı. Xeyir tanrısı Mərdukun şər qüvvələr və ölüm üzərində hakimiyyəti də (Əsatirə görə) bu vaxt başlarmış.

Bu bayramda qul «ağaya» çevrilərmiş. Yeri gəlmişkən ilk yeni il karnavalları da qədim Babildə keçirilmişdir. Karnaval sözü qədim Babil dilində "gəmi-dəniz" deməkdir ki, bu da Mərdukun Dəclə çayında üzməsilə əlaqədardır. Bayram günləri burada Mərdukun dəhşət ilahəsi Tiamatla döyüş səhnəsi canlanarmış. Nəticədə, əlbəttə, xeyir tanrısı Mərdukun qalib gəlirmiş.

Babilistan əsirliyində olan yəhudilər yeni il ənənəsini öyrənərək yunanlara ötürmüş, oradan da bütün Avropaya yayılmışdır.

Maraqlıdır ki, dekabrın sonuna düşən günlərdə ilk dəfə yeni ilin qeyd olunmasını İran dövlətinə aid edirlər. Qədim şərqdə 5 min ildən artıq dövlətçilik tarixinə malik olan İranda hələ qədimdən təqvim varmış. Onlar bilirlərmiş ki, ilin bir günü var ki, həmin gün ən qısa gündüz ən uzun gecəylə növbələşir. Bu gündən başlayaraq gün uzanmağa başlayır və həyatverici günəş səmada daha çox bərq vurur. Təbiət oyanmağa başlayır. Həyat cansıxıcı qış üzərində, yeni ölüm üzərində qələbə çalır. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə düşən həmin günü Günəş qapısı adlandıraraq bayram edirdilər.

Sonralar İranı işğal edən romalılar da həmin günləri bayram etməyə başladılar. Əsrlər keçdi, qədim Roma dövləti xristian dövlətinə çevrildi. Roma dövləti İsa peyğəmbərin doğum gününün də yanvarın 1-nə düşdüyünü rəsmiləşdirirək bu bayramı həm yeni il, həm də Milad bayramı kimi qeyd etməyə başladılar (əslində dünyəvi alimlər ancaq Məhəmməd peyğəmbərin (s) doğum gününü elmi şəkildə təsdiqləmişlər. Digər peyğəmbərlərin həyatda varlığı, doğum və vəfatları tarixləri dünyəvi elm adamları tərəfindən elmi şəkildə qəbul edilməmişdir).

Dünyanın hər yerində insanlar Yeni ili eyni ümidlərlə: xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də hərə öz adət ənənələrinə uyğun qarşılayır.

Bir çoxları yeni ildə küknar, şam ağaclarının bəzədilməsini xristianlıqla əlaqələndirsələr də bu ənənə yəni yeni ildə yaşıl ağacların bəzədilməsi xristianlıqdan çox əvvəllərə təsadüf edir ki, bu da xeyir bərəkət, yeni həyatın başlanması əlaməti kimi hələ qədimdən mövcud olmuşdur.

Yeni il dünyəvi dövlət olan vətənimiz Azərbaycanda da yüksək səviyyədə qeyd olunur. 1992-ci ildə hakimiyyətə gələn meydançılar yeni ilin xristian bayramı olduğunu iddia edərək şənlikləri qadağan etmişdilər. Əslində həmin illərdə əhalinin də bayram etmək üçün nə imkanı vardı, nə həvəsi.

İllər keçdikcə ölkəmizdə əhalinin rifah halının yüksəlməsi yeni ilin yüksək səviyyədə keçirilməsinə imkan yaratdı. 2006-cı ildən yeni ilin başlandığı günlər, yanvarın 1 və 2-si ölkəmizdə bayram günləri, qeyri-iş günləri sayılır. Dünya Azərbaycanlılarının həmrəylik gününün də 31 dekabrda qeyd olunması bu şənliklərin daha yüksək səviyyədə keçməsinə rəvac verir.

**Qüdrət SƏMƏDOV.**